**Tarix və onun problemləri, № 1 2014**

**DIRƏXŞAN HIDAYƏTI FƏRD**
***AMEA M.Füzuli adına***
***Əlyazmalar İnstitutunun dissertantı***
**E-mail: derakhshanh@yahoo.com**

# TALIŞLARIN ETNİK TARİXİNİN ÖYRƏNİLMƏSİNİN BƏZİ ASPEKTLƏRİ

*Açar sözlər*: etnos, talış, Hirkan, kadusilər, hind-avropalılar
*Ключевые слова*: этнос, талыш, Гиркан, кадусии, индоевропейцы
*Key words*: ethnos, Talysh, Hyrcanus, kaduses, Indo-Europeans

Müasir Azərbaycan Respublikasının cənub-şərq hissəsində bu ərazilərin qədim sakinləri olan talışlar yaşayırlar (özlərini toliş adlandırırlar). Onlar müasir inzibati-ərazi bölgüsünə əsasən Lənkəran, Astara, Lerik və qismən Masallı rayonlarında məskunlaşıblar. 2009-cu ildə keçirilmiş son ümumimilli siyahıalmanın nəticələrinə görə Azərbaycanda talışların sayı 112 min nəfər təşkil edir (1,54). Lakin, qeyd etmək lazımdır ki, bəzi tədqiqatçılar hesab edirlər ki, talış dilinin və etnik mədəniyyətinin daşıyıcılarının sayı bu rəqəmdən müəyyən dərəcədə çoxdur (2, 196). Bu mülahizələrə əsasən, talışların bir qismi etnik identikliklərini saxlayaraq, eyni zamanda özlərini azərbaycanlı kimi qeyd edirlər.

Talışların sayının tarixi dinamikasına nəzər saldıqda isə müəyyən qədər dolaşıq və mübahisəli məsələlərə rast gəlinir. XIX əsrin 60-ci illərində müasir Azərbaycan ərazisinin cənub bölgəsində talış dili 142 kənddə üstünlük təşkil edirdi (3, 1). Lakin talışların sayı haqqında burada məlumat yoxdur. Talışların sayına biz N.Zeydlisin məlumatında rast gəlirik. Bu məlumatda qeyd olunur ki, Lənkəran qəzasında talışların sayı 34,4 min nəfərdir (4, 91). Sonrakı illərdə o dövrün siyahıyaalmaların nəticələrinə əsasən talışların sayı artmağa doğru gedirdi. Belə ki, 1880-ci il siyahıyaalmaya görə onların sayı 39,2 min (5, 22-23), 1886-cı ilin məlumatına görə isə 47,3 min nəfər təşkil etmişdir (6). XIX əsrin sonu XX əsrin əvvəllərində siyahıyaalma materiallarında talışların sayının azalması müşahidə olunur. Bəzi müəlliflər hesab edirlər ki, belə azalma bir neçə amillə əlaqəlidir. Bu amillər arasında, talış əhalisinin bir hissəsinin öz ana dilini türk (Azərbaycan) dili yazdırmasını, statistik məlumatların düzgün aparılmamasını qeyd etmək olar (7, 108-110).

Qeyd etmək lazımdır ki, SSRİ dövründə, 30-ci illərin sonlarından başlayaraq, talışlar bir etnos kimi qeyd olunmurdular. Belə ki, Azərbaycan əhalisinin 1931-ci il siyahıalınmasında talışların sayı təxminən 90 min nəfər təşkil etmişdir (8). 1937-ci il Ümumi ittifaq siyahıalınmasının nəticələrinə görə isə talışların sayı 100 minə çatmışdır (9, 94). Lakin sonrakı siyahıalınmalarda artıq talışlar qeydə alınmırdı. Yalnız 1989-ci il Ümumi ittifaq siyahıalınmasından sonra talışlar yenidən bir etnos kimi qeyd olunmağa başlanır.

İran ərazisində də talışlar kompakt şəkildə yaşayırlar. Onlar Xəzər sahillərinin həm ovalıq hissəsində, həm də onu qərb tərəfdən əhatə edən dağlıq hissəsində məskunlaşmışlar. Ovalıq hissədə talışların yaşadığı ərazi Kepri çalaya qədər uzanır və burada talış dili gilək dili ilə əvəz olunur. İranın köhnə inzibati bölgüsünə əsasən talışlar beş rayonunda – Həmseyi-Tevaleş, Kərgənrud, Asalem, Taleş-Dolab, Şəndermin və Masalda yerləşmişlər. İran sərhədlərində, lakin yayla hissədə, Ərdəbil şəhərinin yaxınlığında bir neçə talış kəndi var: Güleş, Ceid, Gültəpə, Sarıxanlı və başqaları.

Etnik baxımdan talışlar bir neçə kiçik etnoqrafik qruplara bölünürlər. Belə ki, etnik xüsusiyyətlərinə görə talışlar pornaimlərə, alarlara, oratlılara, zubadlılara bölünürlər. Qeyd

**Tarix və onun problemləri, № 1 2014**

etmək lazımdır ki, bu qruplar təkcə etnik xüsusiyyətlərinə görə deyil, həm də həyat tərzlərinə, məişət xüsusiyyətlərinə görə də fərqlənirlər.

Talış dili hind-avropa dil ailəsinin iran qrupuna daxildir. Müasir talış dilinin dörd şivəsi mövcuddur: Astara, Lənkəran, Lerik və Masallı şivələri.

Azərbaycanda və İranda yaşayan talışlar dini baxımdan islam dininə mənsubdurlar. Onların əksəriyyəti şiə təriqətinə mənsubdurlar. Eyni zamanda bəzi ərazilərdə, məsələn, Astaranın bəzi kəndləri, İran ərazisində yerləşən bəzi kəndlər sünnü məzhəbinə mənsubdurlar. Bundan başqa, eyni yaşayış yerlərində müxtəlif məzhəblərə şamil olan talışlarında yaşadığı məlumdur. Belə ki, Cənubi Azərbaycanın Piləçay kəndində və rayon mərkəzində yaşayan talışlar sünnü, Nəmin şəhərində şiə, eyni adlı əyalətdə isə sünnüdür. Lənkəran, Astarada yaşayan talışlar arasında da hər iki məzhəbdən olanlar var (7, 111).

Talış zonasında aparılan arxeoloji qazıntılar buranın qədim əkinçilik mədəniyyətinin geniş yayılma bölgəsi hesab etməyə əsas verir. XIX əsrin sonları – XX əsrin əvvəllərindəİran və Azərbaycan ərzilərində fransız alimləri Jak və Anri de Morqantərəfindən arxeoloji qazıntılar aparılmışdır. Bu qazıntılar nəticəsində əldə olunan materiallar Talış bölgəsində son tunc və erkən dəmir mədəniyyətlərinin mövcud olması təsdiq olunur.

Yunan mənbələrinə əsasən b.e.ə. I minilliyinin ikinci yarısında Xəzər dənizinin cənub-qərb sahillərində hirkanlar,kadusilər, tapirlər və bəzi başqa tayfalar yaşayırdılar(10). Qədim zamanlarda Xəzər dənizi də bu qəbilənin adı ilə Hirkan dənizi adlanmışdır.

Məlum olduğu kimi, antik müəlliflər, hirkanların albanlar və kadusilərlə qonşuluqda yaşadıqlarını qeyd edirlər. Strabona görə (10) hirkanlar Xəzər dənizinin cənub-qərb sahillərində Xəzərlərin geniş yayıldığı yerlərdən ta onun Midiya dağları ilə qovuşduğu yerlərədək geniş ərazilərdə yaşayırlar. Diqqət yetirilsə, bu yerlər həmin müəllifin kadusilərin yaşadığını göstərdiyi yerlərlə eyniyyət təşkil edir. StrabonXəzər dənizi sahilində yaşayan xalqları cənubdan şimala doğru sadalayaraq qeyd edir ki, hirkanlardan sonra amardlar, anariklər, albanlar, kaspilər, utilər yaşayır (10). Digər antik müəllif – RufiFest Xəzər dənizi sahillərində yaşayan xalqları bu sıra ilə sadalayır: cəngavər skiflər, acıqlı albanlar, qana həris kadusilər, cəld mardlar, hirkanlar və tapirlər (11, 98). Elmdə geniş yayılmış mülahizələrə görə qeyd olunan tayfalar bilavasitə müasir talışların təşəkkülündə iştirak etmişlər.

Güman etmək olar ki, talışlarda, başqa etnoslar kimi, haçansa indiki yaşadıqları ərazilərə miqrasiya etmişlər. Belə ki, bizim eradan əvvəl 1500 il qabaq hind-avropalıların tərkibində olan İran dilli qəbilələrin indiki İran ərazisinə şimaldan köçmələri haqqında məlumatlar mövcuddur (12, 110).

Lakin eyni zamanda hind-avropalıların təşəkkülü problemi elmə halədə həll olunmamış vəziyyətdə qalmaqdadır. Tədqiqatçıların əksəriyyəti iki fərziyyənin üstündə dayanırlar: anadolu və kurqan. Birinci fərziyəyə əsasən, hind-avropalıların əcdadları Anadoludan (müasir Türkiyə ərazisi) çıxmışlar. İkinci fərziyəyə əsasən isə onların formalaşmasının mərkəzi ön Qafqazın kurqan və çala mədəniyyətləri olmuşdur. Çox güman ki, hind-avropalılar Qafqazda hər iki qədim mədəniyyətin qaynıyıb-qarışması nəticəsində meydana gəlmişlər. Fərz etmək olar ki, anadoluların əcdadlarının formalaşması Qara dənizin kəskin qalxması səbəbindən (mifologoyadaməhşur olan "Dünya tufanı") miqrasiya proseslərinin nəticəsi olmuşdur. Beləliklə, Qara dəniz sahillərində məskunlaşan xalqlar Şimali Qafqazdan gəlmiş kurqan mədəniyyətinin daşıyıcıları ilə toqquşmuşlar.

Müasir talışların ulu babaları gellərin, hirkanların, xüsusən kadusilərin bizim eradan əvvəl II minilliyin sonu I minilliyin əvvəllərindən indiki talış mahalında yaşadıqları məlumdur. Hər halda bizim eradan əvvəl 331-ci ildə İran şahı III Dara ilə makedoniyalı İsgəndər arasında

Qavqamel yaxınlığında baş vermiş döyüşdə kadusilərin müstəqil hərbi qüvvə kimi Atropaten dövləti tərəfində yunanlara qarşı vuruşduqları antik qaynaqlarda qeyd edilmişdir.

Talışların öz adı ilə, yəni talış adı ilə indiki talış torpaqlarında yaşadığı da qədimdən məlumdur. Məsələn, ərəb səyyahı Əbu-qasimÜbeydullah ibn Abdullah ibn Xodadbeh 846-cı ildə yazıb bitirdiyi "Kitab əl-masalik və-l-məməlik" ("Yollar və məmləkətlər haqqında kitab") adlı əsərinin 118-ci səhifəsində ət-Taylasan (talış) torpağı haqqında danışır. Digər ərəb səyyahı Əbu Həmid əl-Əndəlusi əl-Qərnati 1162-ci ildə yazdığı "Tuhfət əl-əlbab və nuxbat əl-əcab" ("Ağıllara töhfə və möcüzələrin seçilməsi") adlı əsərinin 44-cü səhifəsində artıq talış xalqı (talış adı ilə) haqqında danışır (13).

Ərəb tarixi qaynaqlarının verdiyi məlumata görə, talışların ulu babaları elə talış adı ilə IX-XII əsrlərdə müasir Azərbaycan ərazisində, indi yaşadıqları yerlərdə yaşamışlar. B.Miller talış dilinin qədim azəri dilinin törəməsi haqqında fərziyyə irəli sürmüşdür (14, 254), V.Henninq həmin fərziyəni müdafiə etmişdir (15, 176).

Talışların məskunlaşdığı ərazilər qədimdən Azərbaycanın başqa hissələri ilə birlikdə Midiyadan başlayaraq müxtəlif dövlətlərin tərkibinə daxil olmuşdur. XVIII əsrdə bu ərazilərdə Talış xanlığı yaradılmışdır. 1813-cü ildə Rusiya imperiyası ilə İran arasında bağlanan Gülüstan müqaviləsinə əsasən bu xanlıq Şimali Azərbaycanın başqa hissələri ilə birlikdə Rusiyanın tərkibinə qatılmışdır.

1814-də xanlıq faktiki olaraq komendantların ixtiyarına keçdi, tam səlahiyyətsiz duruma düşdü, 1826-cı ildə isə tamam ləğv edildi. Çar hakimiyyəti illərində ərazi Bakı quberniyasının Lənkəran qəzası adlandı. Onun başında isə pristavlar dururdu. Sovet hakimiyyəti illərində Şəhər XDS olsa da, faktiki hakimiyyət Kommunist Partiyasının raykom katiblərinin ixtiyarında idi. Azərbaycan müstəqillik qazandıqdan sonra isə Şəhər İcra hakimiyyəti yarandı. 1930-cu ilə kimi bölgədə yalnız Lənkəran tanınsa da, sonra 7 rayona bölündü. 1938-ci ildə bu rayonlaşma yekunlaşdı.

Talışların müasir məişət və mədəniyyəti Azərbaycan türklərinkindən az fərqlənir. Qədim tarixə malik olan və kütləvi xarakter alan talış-azərbaycanikidilliyi bu zonada geniş yayılmışdır. Hələ XIX əsr müəllifləri qeyd edirdilər ki, talışlar azərbaycanlılarla ünsiyyət quraraq onların dillərini mənimsəyirdilər, çünki Azərbaycan türkçəsi ətraf əhali dünya ilə əlaqə vasitəsi idi (16, 203). Qeyd edilməlidir ki, İran Talışında da Azərbaycan türkçəsi geniş yayılmışdır. Xüsusilə belə bir hal Tavaleş əhalisi üçün səciyyəvidir. Lakin, belə bir vəziyyət talış dilinin funksional əhamiyyətinin azalmasını təsdiq etmir. Bu dildə Lənkəran-Astara bölgəsinin əhalisi həm məişətdə, həm də ictimai həyatda geniş istifadə edir.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT:

1.Azərbaycanın demoqrafik göstəriciləri. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2013

2. Мамедли А. Современные этнокультурные процессы в Азербайджане: основные тенденции и перспективы. Баку, издательствоУниверситет Хазар, 2008, 246 стр

3. Рисс П.Ф. О талышинцах, ихобразежизни и языке // Записки КОИРГО, III, Тифлис, 1855

4.Списки населенных мест Российской империи. Бакинская губерния. Т.65. Тифлис, 1870

5. Статистические таблицы о народонаселении Кавказского края // Сборник сведений о Кавказе, т.VIII

**Tarix və onun problemləri, № 1 2014**

6.Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 года. Тифлис, 1898
7.Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı, Elm, 2000.
8.Перепись населения Азербайджанской ССР 1931 года. Вып. II. Баку: Азернешр, 1932, 280 с.
9.Всесоюзная перепись населения 1937 г. Краткие итоги. М: Наука, 1991, 90 с.
10.Strabon, XI, 7, I
11. Алиев К.Г. Античные источники по истории Азербайджана, Баку, 1986.
12. Современный Иран, Москва, 1975
13. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı: Элм, 1974, 320 с.
14. Миллер Б.В. Талышский язык, Москва, 1953.
15.Henning W.B. The ancietic language of Azerbaijan – Transaction of Philological Society, London, 1955
16.Обозрение Российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть II. Санкт-Петербург, 1836, с.203

**ДИРЕШХАН ГИДАЯТИ ФЕРД**

## НЕКОТОРЫЕ АСПЕКТЫ ИЗУЧЕНИЯ ЭТНИЧЕСКОЙ ИСТОРИИ ТАЛЫШЕЙ

Статья посвящена некоторым аспектам этнической истории талышей, издревле живущих на юго-востоке Азербайджанской Республики, а также в северных регионах Ирана. В статье отмечается, что, по мнению многих исследователей, талыши генетически связаны с известными еще с античных времен племенами кадусиев, гиркан, проживавших на побережье Каспийского моря. Язык талышей относится к иранской группе индоевропейской семьи. Территории расселения талышей на протяжении тысячелетий входили,вместе с другими частями Азербайджана, в состав одних и тех же государств. Во многом, по этой причине традиционная культура и быт талышей практически не отличается от азербайджанской.

**DIRESHKHAN HIDAYETI FERD**

## SOME ASPECTS OF STUDY OF ETHNICAL HISTORY OF TALYSHS

The article is devoted to some aspects of ethnical history of Talyshs who have been residing in the southeast of the Azerbaijan Republic, as well as in the northern regions of Iran since ancient times. The article notes that, as viewed by many researchers, Talyshs are genetically linked to the tribes of Kadusians, Girkans who had inhabited the Caspian shoreline yet since the ancient times. The language of the Talyshs is related to the Iranian group of Indo-European languages. The habitats of Talyshs had joined, and so had the rest parts of Azerbaijan, the composition of one and the same states over millennia. Owing significantly to this reason, the traditional culture and lifestyle of the Talyshs practically do not differ from Azerbaijan's.

***Rəyçilər: t.e.d.T.Həsənzadə, t.e.d. A.C.İsgəndərov***

***AMEA M.Füzuli adına Əlyazmalar İntitutu Elmi Şurasının 22 yanvar 2014-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***